# Miqdarın və döyüşçü dostlarının son andı

***"Öldü var, döndü yoxdu" - bu Miqdarın və onun döyüşçü dostlarının son andı idi. Onların hər birisi Vətənə atılan güllələri sinələri ilə qarşılamağa hazır idilər. Əsgərlərimiz andlarına sadiq qaldılar. İşğalçı ordunun başına od ələdilər. Xallı pələng libaslı əsgərlərimiz "yağının bir ucu sənin, bir ucu mənim" - deyərək döyüş meydanında düşmənin xeyli canlı qüvvəsini məhv etdilər. Döyüşçü dostları Miqdarı cəsur döyüşçü kimi xatırlayır. Onunla çiyin-çiyinə döyüşən əsgər dostları bildirirlər ki, Miqdar heç bir tərifə ehtiyacı olmadan, bütöv, kamil bir igid ömrü yaşadı. Düşmənə də, ölümə də meydan oxudu və hər ikisinə də qalib gəldi.***



Döyüşdə qəhrəmanlıq nümunəsi göstərərək ölümüylə əbədi ölümsüzlük qazanan Umudov Miqdar Məhəmmədiyyə oğlu 16 iyul 1964-cü ildə Zərdab rayonunun Körpükənd kəndində anadan olub. 1980-ci ildə Körpükənd kənd tam orta məktəbini bitirib. 1982-1984-cü illərdə Sovet Ordusunun tərkibində xidmət keçib. Əsgərlikdən qayıtdıqdan sonra təsərrüfatın müxtəlif sahələrində çalışıb.

1992-ci ildə işğalçı Ermənistan ordusunun torpaqlarımıza təcavüzü genişlənəndə bu haqsızlığa dözməyərək torpaqlarımızın müdafiəsinə qalxıb. Cəsurluğuna və qorxmazlığına görə zabit və əsgərlər arasında hörmət qazanıb. Onun döyüş yolu Ağdam rayonu istiqamətində gedən vuruşlardan keçib. Rayon və kəndlərimizin, strateji əhəmiyyətli yüksəkliklərin qorunub saxlanması üçün fəallıq göstərib. Bir sıra ağır döyüşlərin iştirakçısı olub. Miqdar Umudov bu döyüşlərdə xüsusi fədakarlıq, azğın düşmənin layiqli cəzasını verməyə səy göstərib. İştirak etdiyi bütün döyüşlərdə cəsarətlə vuruşub, ölümün gözünə dik baxıb.

Döyüşçü dostları deyirlər ki, Miqdar ilə döyüşə girmək bizim üçün xoş idi. Miqdar ilə düşmənə qarşı vuruşanda daha ürəkli olurduq. Bilirdik ki, o, dostlarını darda qoyan deyil. Yaralı dostlarını döyüş zonasından öz qolları üzərində çıxarırdı. Midar sədaqətli dost, etibarlı yoldaş idi.

Miqdar söz vermişdi ki, düşmən tapdağı altında inləyən torpaqlarımızı azad etməyincə, düşmən əlində qalan Şuşanın başı üzərində üçrəngli bayrağımızı görməyincə, ərazi bütövlüyümüz təmin olunmayınca, bu yoldan geri dönən deyil. Çox təəssüflər olsun ki, düşmən gülləleri onun bu müqəddəs arzusunu gözündə qoydu. 29 dekabr 1993-cü ildə şəhidlik zirvəsinə ucaldı. Körpükənd camaatı bu qəhrəman oğlunu da kənd qəbiristanlığında dəfn etdi. Ana torpaq bir istəkli balasını da sinəsinə sıxıb dərdli-dərdli inildədi. Qürurverici haldır ki, Miqdarın arzusunu Ali Baş Komandanımızın rəhbərliyi ilə əsgər və zabitlərimiz 2020-ci ildə - 44 günlük savaşda gerçəkləşdirdi.

Şəhidimizin həyat yoldaşı Gülər Mürəddin qızına təsəlli verə bilmirəm. Əslində isə Gülər xanımın heç bir təsəlliyə-filana ehtiyacı yoxdur. Bu məğrur ana torpağa Vətən sözünü qanla yazan, könüllü surətdə şəhidliyi özünə əbədi yol seçən həyat yoldaşının bu amalını müqəddəs sanır, bu yoldan şərəf duyur, qürur hissi keçirir. O, çox gözəl bilir ki, şəhidlik elə bir uca zirvədir ki, bu zirvə Allahla insan arasındakı məsafədə yerləşir. Lakin bu zirvə insanlara bir addım yaxındır. Şəhid məzarına dünyanın hansı bucağından baxırsan bax, fərq eləməz, göz önündə möhtəşəmliyi və ucalığı ilə görünən bir ziyarətgah canlanır.

Bir də təsəllimiz ondadır ki, Miqdarın ailəsində iki tərbiyəli, vətənpərvər oğul böyüyür - Cəlil və Nazim. Hər iki qardaş atalarının yolunu uca tutur, haqlı olaraq şəhid ataları ilə fəxr edirlər.

Oxuduğu Xasa kənd natamam məktəbə şəhid Miqdar Umudovun adı verilib.

**Elman Qasımov,**
**"Zərdabi Nəşr" MMC-nin direktoru**